# Tibbi sığorta haqqında

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun əhalinin tibbi sığortasının təşkilati, hüquqi və iqtisadi əsaslarını müəyyən edir, tibbi sığortanın subyektləri arasındakı münasibətləri tənzimləyir.

### I fəsil
### ÜMUMİ MÜDDƏALAR

*Maddə 1.* ***Əsas anlayışlar*** [i]

*1.0. Bu Qanunun məqsədləri üçün aşağıdakı əsas anlayışlardan istifadə edilir:*

*1.0.1.* ***xidmətlər zərfi*** *– ~~baza və əlavə hissələrdən ibarət olmaqla~~ icbari tibbi sığortanın maliyyə mənbələri hesabına sığortaolunanlara müvafiq növdə, həcmdə və şərtlərlə göstərilən tibbi xidmətlərin toplusu;*[ii]

~~*1.0.2.* ***xidmətlər zərfinin baza hissəsi*** *– sığortaolunanlara xidmətlər zərfinə uyğun olaraq göstərilən ilkin səhiyyə xidməti, habelə təcili və təxirəsalınmaz tibbi yardım xidməti;*~~ [iii]

~~*1.0.3.* ***xidmətlər zərfinin əlavə hissəsi*** *– sığortaolunanlara xidmətlər zərfinə uyğun olaraq göstərilən ixtisaslaşdırılmış tibbi yardım;*~~

*1.0.4.* ***sığorta haqqı*** *– risklərin qəbul edilməsi və ya bölüşdürülməsi müqabilində bu Qanunla müəyyən olunmuş qaydada sığortalının sığortaçıya ödəməli olduğu pul məbləği;*

*1.0.5.* ***sığortaçı*** *– "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən sığorta fəaliyyətini həyata keçirmək üçün müvafiq lisenziyaya malik olan, sığorta müqaviləsində nəzərdə tutulan sığorta hadisəsi baş verdiyi halda icbari sığorta qanunlarında və ya müqavilə ilə müəyyən olunmuş qaydada sığorta ödənişini etmək öhdəliyi daşıyan sığorta müqaviləsinin tərəfi olan yerli hüquqi şəxs, icbari tibbi sığortaya münasibətdə isə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum);* [iv]

*1.0.6.* ***sığortalı*** *– bu Qanunda nəzərdə tutulmuş hallarda öz adından və ya sığortaolunan adından sığorta haqqı ödəyən şəxs;*[v]

*1.0.7.* ***sığortaolunan*** *– sağlamlığı icbari və ya könüllü qaydada sığortalanmış fiziki şəxslər;*[vi]

*1.0.8.* ***sığorta ödənişi*** *– sığorta hadisəsi baş verdikdə icbari tibbi sığortaya münasibətdə xidmətlər zərfinə və tariflərə, könüllü tibbi sığortaya münasibətdə isə könüllü tibbi sığorta müqaviləsinə uyğun olaraq bu Qanunla nəzərdə tutulmuş qaydada tibb müəssisəsinə və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxsə ödənilən maliyyə vəsaiti;*[vii]

*1.0.9.* ***sığorta limiti*** *– icbari tibbi sığorta çərçivəsində xidmətlər zərfində nəzərdə tutulduğu hallarda sığortaolunana təqvim ili müddəti ərzində göstərilən tibbi xidmətlərin say həddi;* [viii]

1.0.10. **sığorta hadisəsi** – bu Qanuna əsasən sığorta ödənişinin ödənilməsi üçün əsas olan hadisə və ya yaranan hal (o cümlədən profilaktik tədbirlər);[ix]

~~1.0.11. **sığorta ili** – icbari tibbi sığorta üzrə sığorta haqqının ödənildiyi ilin yanvar ayının 1-dən dekabr ayının 31-dək olan dövr;~~

~~1.0.12. **tibb təchizatçısı** – "Özəl tibb fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən özəl tibb fəaliyyəti və ya özəl tibbi praktika ilə məşğul olan hüquqi və ya fiziki şəxslər, habelə "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən əczaçılıq fəaliyyəti ilə məşğul olan hüquqi və ya fiziki şəxslər;~~

1.0.13. **tibbi xidmətlərin göstərilməsi haqqında müqavilə** – icbari tibbi sığorta çərçivəsində tibbi xidmətlərin göstərilməsi məqsədilə tibb müəssisəsi ilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) arasında bağlanan müqavilə; [x]

1.0.14. **tibbi ərazi bölməsi** – müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən onun tabeliyinə verilən dövlət səhiyyə sisteminə daxil olan tibb müəssisələrinin inzibati ərazi vahidləri üzrə qruplaşdırılması;[xi]

1.0.15. **müştərək maliyyələşmə məbləği** – sığorta hadisəsi nəticəsində yaranan itkilərin və ya dəyən zərərin icbari tibbi sığorta təminatı ilə əhatə olunmayan və sığortaolunan tərəfindən ödənilən hissəsidir;[xii]

1.0.16. **tibb müəssisəsi** – dövlət və ya qeyri-dövlət səhiyyə sisteminə daxil olan və tibb fəaliyyətini həyata keçirən hüquqi şəxs.

### M a d d ə 1 - 1 . Tibbi sığorta və onun formaları [xiii]

1-1.1. Tibbi sığorta sağlamlığın qorunması sahəsində əhalinin sosial müdafiəsi forması olmaqla, sığorta hadisəsi baş verdikdə sığortaolunanın tibbi xidmət və dərman yardımı almasına təminat verir.

1-1.2. Tibbi sığorta icbari və könüllü formada həyata keçirilir.

1-1.3. İcbari tibbi sığorta dövlət sosial sığortasının tərkib hissəsi olmaqla, sığorta hadisəsi zamanı sığortaolunanlara icbari tibbi sığortanın maliyyə mənbələri hesabına və xidmətlər zərfi çərçivəsində sığortaolunanların tibbi yardım almasını təmin edir.

1-1.4. Könüllü tibbi sığorta sığortaolunanların əlavə tibbi xidmət və dərman yardımı almasını təmin edir.

### M a d d ə 2 . Tibbi sığorta haqqında Azərbaycan Respublikasının qanunvericiliyi

2.1. Tibbi sığorta haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, bu Qanundan, Azərbaycan Respublikasının Mülki Məcəlləsindən, "Sığorta fəaliyyəti haqqında" *Azərbaycan Respublikasının Qanunundan*, digər normativ hüquqi aktlardan və Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrdən ibarətdir.[xiv]

*2.2. Ələt azad iqtisadi zonasında tibbi sığorta sahəsində münasibətlər "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.*[xv]

*M a d d ə  2 - 1 .* **Tibbi sığortanın subyektləri** [xvi]

*Tibbi sığortanın subyektləri sığortaolunanlar, sığortalılar, sığortaçılar və tibb müəssisələridir.* [xvii]

*I I  f ə s i l* [xviii]

***Könüllü tibbi sığorta***

M a d d ə  3 . ***Könüllü tibbi sığortada sığortalılar*** [xix]

*3.1. Könüllü tibbi sığortada sığortalılar – sığorta olunan şəxslər və onların mənafeyini ifadə edən hüquqi şəxslərdir.*

*3.2. Könüllü tibbi sığortanın subyektləri arasındakı mübahisələrə inzibati qaydada və ya məhkəmə qaydasında baxılır.*

M a d d ə  4 . ***Könüllü tibbi*** **sığorta müqaviləsi** [xx]

*4.1. Könüllü tibbi* sığorta onun subyektləri arasında bağlanmış müqavilələr formasında həyata keçirilir. [xxi]

*4.2. Könüllü tibbi* sığorta müqaviləsi - qanunvericilikdə müəyyən olunmuş qaydada sığortalı *sığortaçılar* arasında bağlanan və sığorta olunana tibbi sığorta proqramına uyğun olaraq göstərilən tibbi yardımın maliyyələşdirilməsini və təşkilini müəyyən edən, sığorta olunanın digər mənafelərini müdafiə edən yazılı sazişdir. [xxii]

*4.3. Könüllü tibbi* sığorta müqaviləsi ilk sığorta haqqı ödənildiyi andan qüvvəyə minmiş hesab edilir.

~~*4.4. Könüllü tibbi* sığorta müqaviləsinin forması və bağlanma qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.~~[xxiii]

*4.5. Könüllü tibbi* sığortanın ayrı-ayrı növlərinə aid qaydalar ~~və icbari tibbi sığorta münasibətlərinin şamil edilmədiyi şəxslərin kateqoriyaları~~ müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. [xxiv]

M a d d ə  5 . ***Könüllü tibbi*** **sığorta şəhadətnaməsi** [xxv]

*5.1. Könüllü tibbi* sığorta şəhadətnaməsi - sığorta olunana yaşayış yerindən asılı olmayaraq Azərbaycan Respublikasının bütün ərazisində, habelə Azərbaycan Respublikası ilə tibbi sığorta sahəsində müqavilə bağlayan digər dövlətin ərazisində

tibbi sığorta proqramında göstərildiyindən az olmayan həcmdə tibbi yardım almağa təminat verən sənəddir. [xxvi]

5.2. *Könüllü* tibbi sığorta müqaviləsinin subyekti olan vətəndaşlar tibbi sığorta şəhadətnaməsi almalıdırlar. [xxvii]

5.3. *Könüllü tibbi* sığorta şəhadətnaməsi sığorta olunanın özündə olur və tibb *müəssisələrinə* müraciət edərkən təqdim olunur. [xxviii]

5.4. *Könüllü tibbi* sığorta şəhadətnaməsinin forması və onun tətbiqi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.

### Maddə 6. ***Könüllü tibbi sığorta üzrə sığortalının hüquq və vəzifələri*** [xxix]

*6.1. Könüllü tibbi sığorta üzrə sığortalının hüquqları aşağıdakılardır:*

*6.1.1. ~~müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada~~ könüllü tibbi sığorta müqaviləsi bağlamaq və ya onu ləğv etmək;* [xxx]

*6.1.2. sığortaçını sərbəst seçmək;*

*6.1.3. könüllü tibbi sığorta müqaviləsinin şərtlərinin yerinə yetirilməsinə nəzarət etmək.*

*6.2. Könüllü tibbi sığorta üzrə sığortalının vəzifələri aşağıdakılardır:*

*6.2.1. sığorta haqlarını vaxtında ödəmək;*

*6.2.2. sığortaolunanların sağlamlıq vəziyyətinin göstəriciləri haqqında sığortaçıya məlumat vermək.*

*6.3. Könüllü tibbi sığorta müqaviləsində sığortalı üçün digər vəzifələr də nəzərdə tutula bilər.*

### Maddə 7. ***Könüllü tibbi sığorta üzrə sığortaolunanların hüquqları*** [xxxi]

*7.1. Könüllü tibbi sığorta üzrə sığortaolunanların hüquqları aşağıdakılardır:*

*7.1.1. könüllü tibbi sığorta şəhadətnaməsini aldıqları andan bu Qanunla və könüllü tibbi sığorta müqaviləsində müəyyən olunmuş hüquqları həyata keçirmək;*

*7.1.2. könüllü tibbi sığorta müqaviləsi ilə müəyyən edilən tibbi yardım növlərinə və həcminə uyğun olaraq tibb müəssisəsindən hər hansı birini və həkimi seçmək;* [xxxii]

*7.1.3. könüllü tibbi sığorta müqaviləsinin şərtlərinə uyğun olan tibbi xidmətdən istifadə etmək;*

*7.1.4. könüllü tibbi sığorta müqaviləsinə əsasən müraciət etdiyi tibb müəssisəsindən sağlamlığının vəziyyəti, eləcə də tətbiq olunan müalicə metodları və onların nəticələri barədə məlumat almaq;*

*7.1.5. sığortalıya, sığortaçıya, tibb müəssisəsinə qarşı, könüllü tibbi sığorta müqaviləsinin şərtlərindən asılı olmayaraq, onların təqsiri üzündən vurulmuş zərərin ödənilməsi də daxil olmaqla, məhkəmədə iddia qaldırmaq;*

*7.1.6. könüllü tibbi sığorta müqaviləsinin şərtlərində müəyyən edildiyi halda, istifadə edilməyən sığorta haqqının bir hissəsini geri almaq.*

*7.2. Sığortaolunanların könüllü tibbi sığorta ilə bağlı mənafeyini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum), sığortaçılar, həmkarlar ittifaqı təşkilatları və digər ictimai birliklər müdafiə edir.*

*7.3. Azərbaycan Respublikasından kənarda yaşayan Azərbaycan Respublikası vətəndaşlarının könüllü tibbi sığortası Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən həyata keçirilir.*

M a d d ə 8 . **Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin və əcnəbilərin *könüllü* tibbi sığortası** [xxxiii]

*8.1.* Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslər *könüllü sığorta üzrə* Azərbaycan Respublikasının vətəndaşları ilə eyni hüquq və vəzifələrə malikdirlər. [xxxiv]

*8.2.* Azərbaycan Respublikasında əcnəbilər *könüllü* tibbi sığorta sahəsində, Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrdə başqa qaydalar nəzərdə tutulmayıbsa, Azərbaycan Respublikasının vətəndaşları ilə eyni hüquq və vəzifələrə malikdirlər.

~~M a d d ə 9 . **İcbari tibbi sığorta sisteminin maliyyələşdirilməsi**~~ [xxxv]

~~İcbari tibbi sığorta sistemi dövlət büdcəsindən, sığortalının (mülkiyyət formasından asılı olmayaraq hüquqi şəxslərin və sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin) ödəmələri, icbari tibbi sığorta haqlarının ödəmə qaydasının pozulması hallarında tətbiq olunan cərimə və dəbbə pulu, qanunvericilikdə qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.~~

~~İcbari tibbi sığorta sisteminin maliyyələşdirilməsi, icbari tibbi sığorta haqlarının saxlanması və maliyyə vəsaitinin məqsədli istifadəsinə nəzarət müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.~~

M a d d ə 10 . ***Könüllü tibbi* sığorta sistemində sığorta haqları** [xxxvi]

~~İcbari tibbi sığorta sistemində sığortalılar işləyən vətəndaşlar üçün məbləği və ödənilmə qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən icbari tibbi sığorta haqları ödəyirlər. İcbari tibbi sığorta haqları icbari tibbi sığorta proqramının yerinə yetirilməsini təmin edən məbləğdə müəyyən edilir.~~ [xxxvii]

~~İşləməyən pensiyaçılar, idarə və təşkilat ləğv olunduqda müvəqqəti işsizlər, əmək qabiliyyəti olmayanlar, uşaqlar, tələbələr və büdcə təşkilatlarının işçiləri üçün icbari tibbi sığorta haqları tibbi xidmətlər üçün qiymətlərin indeksasiyası nəzərə alınmaqla müvafiq icra hakimiyyəti orqanı tərəfindən büdcə və sosial müdafiə fondlarının vəsaiti hesabına ödənilir.~~

Könüllü tibbi sığortada sığorta haqlarının məbləği könüllü tibbi sığorta proqramına uyğun olaraq tərəflərin razılığı ilə müəyyən edilir.

~~M a d d ə 1 1 . **İcbari tibbi sığorta proqramı**~~

~~İcbari tibbi sığorta proqramı vətəndaşlara göstərilən tibbi xidmətin şərtlərini, növünü, həcmini(baza zərfini) müəyyən edir və müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir. Bu proqram vətəndaşların müəyyən olunmuş həcmdə və keyfiyyətdə tibbi yardım almasını nəzərdə tutur.~~ [xxxviii]

*I I I f ə s i l* [xxxix]

***Könüllü tibbi sığorta üzrə sığortaçıların fəaliyyəti***

~~M a d d ə 1 2 . **Tibbi sığorta təşkilatı**~~

~~Könüllü tibbi sığorta təşkilatı – mülkiyyət formasından asılı olmayaraq, sığorta qanunvericiliyində müəyyən edilmiş tələblərə müvafiq qaydada xüsusi razılığa (lisenziyaya) malik olan və həmin qanunvericiliyə uyğun olaraq könüllü tibbi sığortanı həyata keçirmək səlahiyyəti olan sığortaçıdır.~~ [xl]

~~İcbari tibbi sığorta təşkilatı - icbari tibbi sığortanı həyata keçirmək üçün müvafiq icra hakimiyyəti orqanı tərəfindən yaradılan *qurumdur*.~~ [xli]

~~Tibb müəssisələri tibbi sığorta təşkilatının təsisçiləri ola bilməzlər.~~ [xlii]

~~Tibbi sığorta təşkilatından vergi tutulması Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə uyğun olaraq tənzimlənir.~~

~~Tibbi sığorta təşkilatının yaradılması, yenidən təşkili və ləğv olunması qanunvericilikdə müəyyən olunmuş qaydada həyata keçirilir.~~

M a d d ə 1 3 . **Könüllü tibbi sığorta üzrə sığortaçının hüquq və vəzifələri** [xliii]

*13.1. Könüllü tibbi sığorta üzrə sığortaçının hüquqları aşağıdakılardır:*

*13.1.1. könüllü tibbi sığorta müqavilələri üzrə tibbi yardım və xidmətlər göstərilməsi üçün tibb müəssisəsini seçmək;*

*13.1.2. tibb müəssisəsi tərəfindən müqavilənin şərtlərinin pozulduğu hallarda tibbi xidmətlərə çəkilən xərcləri qismən ödəmək;*

*13.1.3. tibb müəssisəsinin və (və ya) tibb işçisinin təqsiri üzündən sığortaolunana vurulmuş zərərin ödənilməsi üçün məhkəməyə müraciət etmək;* [xliv]

*13.1.4. zərərin sığortaolunan tərəfindən vurulduğu hallar istisna olmaqla, sığortaolunanın sağlamlığına vurulmuş zərər üçün cavabdeh olan fiziki və ya hüquqi şəxslərdən sığortaolunana tibbi yardım göstərilməsinə sərf olunmuş xərclərin ödənilməsini tələb etmək.*

*13.2. Könüllü tibbi sığorta üzrə sığortaçının vəzifələri aşağıdakılardır:*

*13.2.1. sığortaolunanlara könüllü tibbi sığorta müqaviləsinə uyğun tibbi yardım göstərilməsi üçün tibb müəssisəsi ilə müqavilələr bağlamaq;*

*13.2.2. könüllü tibbi sığorta müqaviləsinin qüvvəyə mindiyi andan sığortaolunana könüllü tibbi sığorta şəhadətnaməsini vermək;*

*13.2.3. tibb müəssisəsinə tibbi xidmətin haqqını müqavilədə nəzərdə tutulmuş qaydada və müddətdə ödəmək;*

*13.2.4. könüllü tibbi sığorta müqaviləsində nəzərdə tutulduğu halda, sığorta haqlarının bir hissəsini sığortaolunana qaytarmaq;*

*13.2.5. müqavilənin şərtlərinə uyğun olaraq tibbi yardımın həcminə, müddətinə və keyfiyyətinə nəzarət etmək;*

*13.2.6. sığortaolunanın mənafelərini müdafiə etmək.*

## *IV fəsil*
## ***Könüllü tibbi sığorta tarifləri*** [xlv]

~~M a d d ə 14. **Tibb müəssisələrinin özəl tibbi praktika ilə məşğul olan şəxslərin hüquq və vəzifələri**~~ [xlvi]

~~Mülkiyyət formasından asılı olmayaraq qanunvericilikdə müəyyən olunmuş qaydada fəaliyyət göstərən tibb müəssisələrinin və özəl tibbi praktika ilə məşğul olan şəxslərin tibbi sığorta sistemində tibbi xidmətlər göstərmək hüququ vardır.~~

~~Özəl tibb müəssisələri və özəl tibbi praktika ilə məşğul olan şəxslər qanunvericiliyə uyğun olaraq keçirilən müsabiqə əsasında icbari tibbi sığorta proqramlarının həyata keçirilməsində iştirak edə bilərlər. Özəl tibb müəssisələri və özəl tibbi praktika ilə məşğul olan şəxslərlə müqavilələr, onların icbari tibbi sığorta proqramlarında iştirakı hallarında, müvafiq icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları, habelə tibbi sığorta təşkilatları ilə bağlanır.~~ [xlvii]

~~Tibbi sığorta proqramlarını yerinə yetirən tibb müəssisələrinin tibbi sığorta sistemindən kənarda da tibbi yardım göstərmək hüququ vardır.~~

~~Qanunvericilikdə müəyyən olunmuş qaydada tibbi sığorta proqramını yerinə yetirən tibb müəssisələrinin və ya özəl tibbi praktika ilə məşğul olan könüllü şəxslərin tibbi sığorta təşkilatını seçmək hüququ vardır.~~ [xlviii]

~~Tibbi sığorta sistemində mülkiyyət formasından asılı olmayaraq tibb müəssisələri sığorta olunanların əmək qabiliyyətinin müvəqqəti itirilməsini təsdiq edən sənəd vermək hüququna malikdirlər.~~

~~İcbari tibbi sığorta sistemində mülkiyyət formasından asılı olmayaraq tibb müəssisələri və ya özəl tibbi praktika ilə məşğul olan şəxslər tibbi sığorta proqramlarını yerinə yetirərkən:~~

~~sığorta olunana tibbi sığorta müqaviləsində nəzərdə tutulmuş müddətdə, həcmdə və keyfiyyətdə tibbi yardım göstərməli;~~

~~sığorta olunanın xəstəliyi ilə əlaqədar baş verə biləcək, eyni zamanda sığorta olunanın təqsirindən üzə çıxmış hər hansı fəsadlar barədə tibbi sığorta təşkilatına məlumat verməli;~~

~~sığorta olunanın sağlamlığının vəziyyətinə və ya şəxsi həyatına dair məlumatlar barədə xidməti sirri qorumalıdırlar.~~

~~İcbari tibbi sığorta sistemində tibb müəssisələri və ya qanunvericilikdə müəyyən olunmuş qaydada özəl tibbi praktika ilə məşğul olan şəxslər tibbi sığorta müqaviləsində nəzərdə tutulan tibbi xidmətlərə görə sığorta olunandan əlavə haqq tələb edə bilməzlər.~~ [xlix]

~~Özəl tibb fəaliyyəti subyektlərinin icbari tibbi sığorta proqramlarında iştirakından asılı olmayaraq, icbari tibbi sığorta qaydalarına əsasən təcili tibbi yardım göstərən özəl tibbi fəaliyyətinin subyektlərinə ödəniş bu şəxslərin sığortalandığı tibbi sığorta təşkilatları tərəfindən həyata keçirilir.~~ [l]

Maddə 15. ***Könüllü tibb*** **sığorta sistemində tibbi xidmətlər üçün tariflər** [li]

~~İcbari tibbi sığorta sistemində tibbi xidmətlər üçün tariflər müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.~~ [lii]

~~Tariflər tibb müəssisələrinin rentabelliyini və tibbi sığorta müqaviləsində nəzərdə tutulan tibbi xidmətin müasir səviyyəsini təmin etməlidir.~~

Könüllü tibbi sığorta üzrə tibbi xidmətlər üçün tariflər *sığortaçı* ilə bu xidmətləri göstərən *tibb müəssisəsi* (və ya özəl tibbi praktika ilə məşğul olan şəxs) arasında razılaşmaya əsasən müəyyən edilir. [liii]

## *IV-I fəsil. İcbari tibbi sığorta* [liv]

### *Maddə 15-1. İcbari tibbi sığortanın əsas prinsipləri*

*15-1.0. İcbari tibbi sığortanın əsas prinsipləri aşağıdakılardır:*

*15-1.0.1. əhalinin tibbi xidmət almaq hüququna, habelə tibbi xidmətlərin əlçatanlığına və keyfiyyətinin artırılmasına dövlət tərəfindən təminat verilməsi;*

*15-1.0.2. sığortalıların icbari tibbi sığorta münasibətlərində həmrəylik prinsipinə əsaslanaraq iştirakının təmin edilməsi;*

*15-1.0.3. sığorta hadisəsi baş verdikdə, sığortaolunana xidmətlər zərfi çərçivəsində icbari tibbi sığortanın maliyyə mənbələri hesabına tibbi xidmətlərin göstərilməsi;*

*15-1.0.4. sığorta ödənişlərinin sığorta haqlarına mütənasibliyinin təmin edilməsi yolu ilə icbari tibbi sığortanın maliyyə sabitliyinin qorunması;* [lv]

*15-1.0.5. sığorta haqlarının ~~sığortalılar tərəfindən~~ müntəzəm ödənilməsinin məcburiliyi;* [lvi]

*15-1.0.6. icbari tibbi sığortanın iştirakçılarının hüquqi bərabərliyi.*

***Maddə 15-2. İcbari tibbi sığorta üzrə sığortalı və sığortaolunanlar*[lvii]**

*15-2.1. Azərbaycan Respublikasının vətəndaşları, Azərbaycan Respublikasında qaçqın statusu almış və BMT-nin Qaçqınlar üzrə Ali komissarının Azərbaycan Respublikasındakı nümayəndəliyi tərəfindən himayəyə götürülmüş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər sığortaolunan hesab edilir.*

*15-2.2. Sığortalılar aşağıdakı kateqoriyalara bölünürlər:*

*15-2.2.1. Azərbaycan Respublikasının Milli Məclisi, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən vəzifəyə təyin olunan şəxslərə münasibətdə onların təyin olunduqları dövlət orqanı (qurumu), seçkili ödənişli vəzifə tutan şəxslərə münasibətdə isə onların seçildiyi dövlət və ya bələdiyyə orqanı (qurumu), Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğun olaraq bağlanmış və hüquqi qüvvəyə minmiş əmək müqaviləsinə əsasən işləyən şəxslərə (o cümlədən, digər əsaslara muzdlu işə cəlb olunan şəxslər) münasibətdə isə sığortalı qismində işəgötürənlər (işə cəlb edən şəxslər) çıxış edir;*

*15-2.2.2. Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən sahibkarlıq fəaliyyətinin və ya digər vergi tutulan əməliyyatlarının müvəqqəti dayandırıldığı hallar istisna olmaqla, vergi ödəyicisi kimi vergi uçotuna alınmış fiziki şəxslər (fərdi sahibkarlar, xüsusi notariuslar, vəkillər kollegiyasının üzvləri) sığortalı qismində özləri çıxış edirlər;*

*15-2.2.3. mülki-hüquqi müqavilələr əsasında işləri (xidmətləri) yerinə yetirən fiziki şəxslərə münasibətdə sığortalı qismində onları işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edən şəxslər çıxış edir;*

*15-2.2.4. bu Qanunun 15-2.2.1-ci, 15-2.2.2-ci, 15-2.2.3-cü maddələrində nəzərdə tutulan şəxslərdən başqa digər sığortaolunanlar sığortalı qismində özləri çıxış edirlər.*

*15-2.3. Bu Qanun müddətli həqiqi hərbi xidmət hərbi qulluqçulara, həbs edilmiş şəxslərə, müəyyən müddətə azadlıqdan məhrumetmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkən şəxslərə (məntəqə tipli cəzaçəkmə müəssisələri istisna olmaqla), habelə bu Qanunun 15-2.1-ci, 15-2.2.1-ci, 15-2.2.2-ci, 15-2.2.3-cü maddələrində göstərilən şəxslərə aid olunduğu hallar istisna olmaqla, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinə əsasən Azərbaycan Respublikasında müvəqqəti olan, müvəqqəti və ya daimi yaşayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə şamil edilmir.*

***Maddə 15-3. Tibb müəssisələrinin icbari tibbi sığortada iştirakı*[lviii]**

*15-3.1. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş tələblərə cavab verən tibb müəssisələri icbari tibbi sığortada iştirak etmək hüququna malikdirlər.* [lix]

*15-3.2. Tibb müəssisələrinin bu Qanunun 15-3.1-ci maddəsinə əsasən müəyyən edilən tələblərə uyğunluğunun qiymətləndirilməsini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) həyata keçirir.* [lx]

*15-3.3. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ilə bu Qanunun 15-3.1-ci maddəsinə əsasən müəyyən edilən tələblərə cavab verən tibb müəssisəsi arasında tibbi xidmətlərin göstərilməsi haqqında müqavilə bağlanılır.* [lxi]

## *IV-II fəsil. İcbari tibbi sığortanın iştirakçılarının hüquq və vəzifələri*

### *Maddə 15-4. İcbari tibbi sığorta üzrə sığortaolunanların hüquq və vəzifələri*

*15-4.1. İcbari tibbi sığorta üzrə sığortaolunanların aşağıdakı hüquqları vardır:*

~~*15-4.1.1. sığorta hadisəsi baş verdikdə bu Qanunla nəzərdə tutulmuş qaydada xidmətlər zərfinin baza və ya əlavə hissələrinə uyğun olaraq tibbi xidmətlərdən istifadə etmək;*~~

*15-4.1.2. bu Qanunun 15-3.1-ci və 15-28-ci maddələrinin müddəaları nəzərə alınmaqla tibb müəssisəsini, habelə həkimi seçmək və bu Qanunla nəzərdə tutulmuş qaydada xidmətlər zərfinə uyğun olaraq tibbi xidmətlərdən istifadə etmək;*[lxii]

*15-4.1.3. göstərilən tibbi xidmətin növü, həcmi, müddəti, keyfiyyəti və şərtləri haqqında düzgün məlumatın verilməsini tibb müəssisəsidən tələb etmək;* [lxiii]

*15-4.1.4. "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən həkim sirri təşkil edən məlumatların gizli saxlanmasını tələb etmək;*

*15-4.1.5. tibb müəssisəsinin təqsiri üzündən dəymiş zərərin əvəzinin ödənilməsini tibb müəssisəsidən tələb etmək;*

*15-4.1.6. icbari tibbi sığorta sahəsində hüquqlarının və qanuni mənafelərinin müdafiəsi üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) və ya məhkəməyə müraciət etmək;*

*15-4.1.7. xeyrinə ödənilmiş sığorta ödənişləri barədə məlumat almaq;*

*15-4.1.8. sığortaçıdan icbari tibbi sığorta ilə bağlı hüquq və vəzifələrinin izah edilməsini tələb etmək;*

*15-4.1.9. onları icbari tibbi sığorta etməyi, habelə sığorta haqqının tam həcmdə və vaxtında ödənilməsini sığortalıdan tələb etmək.*

*15-4.2. İcbari tibbi sığorta üzrə sığortaolunanların vəzifələri aşağıdakılardır:*

*15-4.2.1. tələb edildiyi təqdirdə sağlamlıq vəziyyətinin göstəriciləri haqqında ona məlum olan məlumatları tibb müəssisəsinə vermək;*

*15-4.2.2. tibb müəssisəsinə müraciət etdikdə, şəxsiyyətini təsdiq edən sənədi ona təqdim etmək.*

### *Maddə 15-5. İcbari tibbi sığorta üzrə sığortalıların hüquq və vəzifələri*

*15-5.1. İcbari tibbi sığorta üzrə sığortalıların aşağıdakı hüquqları vardır:*

*15-5.1.1. sığortalıların (sığortaolunanların) qeydiyyatı və uçota alınması haqqında məlumatları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) əldə etmək;*

*15-5.1.2. icbari tibbi sığorta sahəsində hüquqlarını və qanuni mənafelərini müdafiə etmək.*

*15-5.2. İcbari tibbi sığorta üzrə sığortalıların aşağıdakı vəzifələri vardır:*

~~*15-5.2.1. bu Qanunun 15-13.2-ci maddəsində nəzərdə tutulmuş formada icbari tibbi sığorta müqaviləsini kağız daşıyıcıda və ya elektron formada bağlamaq;*~~

*15-5.2.2. sığorta haqlarını vaxtında və tam həcmdə ödəmək.*

### ***Maddə 15-6. İcbari tibbi sığorta üzrə sığortaolunanların fərdi uçot qaydası***[lxiv]

*15-6.1. Bu Qanunun 15-6.2-ci maddəsinin tələbləri nəzərə alınmaqla icbari tibbi sığorta üzrə ~~sığortalı və~~ sığortaolunanların fərdi uçotu müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən aparılır.* [lxv]

*15-6.2. Bu Qanunun 15-2.2.1-ci, 15-2.2.2-ci və 15-2.2.3-cü maddələrində nəzərdə tutulan sığortaolunanların ~~və sığortalıların~~ uçotu müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təqdim etdiyi uçot məlumatları əsasında aparılır.* [lxvi]

*15-6.3. Sığortaolunanların fərdi uçotunun aparılması qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.* [lxvii]

### ***Maddə 15-7. İcbari tibbi sığorta üzrə tibb müəssisəsinin hüquq və vəzifələri***[lxviii]

*15-7.1. Tibb müəssisəsinin aşağıdakı hüquqları vardır:* [lxix]

*15-7.1.2. bu Qanunun 15-3.1-ci maddəsinə əsasən müəyyən edilən tələblərə cavab verdikdə, icbari tibbi sığortanın həyata keçirilməsində iştirak etmək;*

*15-7.1.3. bu Qanunun 15-19-cu maddəsinə uyğun olaraq bağlanmış müqavilə əsasında göstərilmiş tibbi xidmətə görə sığorta ödənişini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) tələb etmək;*

*15-7.1.4. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) bu Qanunla nəzərdə tutulmuş qaydada apardığı ekspertizanın nəticələrini mübahisələndirmək.*

*15-7.2. Tibb müəssisəsinin aşağıdakı vəzifələri vardır:*

*15-7.2.1. bu Qanunun və tibbi xidmətlərin göstərilməsi haqqında müqavilənin şərtlərinə uyğun olaraq sığortaolunanlara xidmətlər zərfinə daxil olan tibbi xidmətlər göstərmək;* [lxx]

*15-7.2.2. icbari tibbi sığorta çərçivəsində və tibbi xidmətlərin göstərilməsi haqqında müqavilənin şərtlərinə uyğun olaraq tibbi xidmətin növünə, həcminə, müddətinə, keyfiyyətinə və şərtlərinə təminat vermək;*

*15-7.2.3. icbari tibbi sığorta çərçivəsində göstərilən tibbi xidmətin uçotunu aparmaq;*

*15-7.2.4. icbari tibbi sığorta çərçivəsində göstərilmiş tibbi xidmətin növünə, həcminə, müddətinə, keyfiyyətinə və şərtlərinə nəzarətin həyata keçirilməsi məqsədilə sığortaolunanlar, onlara göstərilən tibbi xidmətlərin növü, müddəti, keyfiyyəti, şərtləri, o cümlədən "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq onlarla bağlı həkim sirri təşkil edən məlumatları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) vermək;*

*15-7.2.5. icbari tibbi sığorta çərçivəsində göstərilən tibbi xidmət barədə hesabatları bu Qanunla nəzərdə tutulmuş qaydada və müddətdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim etmək;*

*15-7.2.6. onun təqsiri üzündən sığortaolunanların sağlamlığına dəymiş zərərin əvəzini ödəmək;*

*15-7.2.7. tibbi xidmətlərin göstərilməsi haqqında müqavilədə nəzərdə tutulmuş ixtisaslaşdırılmış tibbi yardım xidmətinin göstərilməsi mümkün olmadıqda, təcili və təxirəsalınmaz hallarda tibb müəssisəsi tərəfindən öz maliyyə vəsaiti hesabına sığortaolunanı bu xidməti göstərən digər tibb müəssisəsinə göndərmək.* [lxxi]

***Maddə 15-8. İcbari tibbi sığorta üzrə sığortaçının hüquq və vəzifələri***

*15-8.1. İcbari tibbi sığorta sahəsində sığortaçının aşağıdakı hüquqları vardır:*

*15-8.1.1. icbari tibbi sığorta üzrə dövlət adından tibbi xidmətlərin mərkəzləşdirilmiş alıcısı funksiyasını həyata keçirmək;*

*15-8.1.2. tibbi xidmətlərdən istifadə edilməsində əhali üçün bərabər şərtlərin yaradılması, tibbi xidmətlərin keyfiyyət və səmərəliliyinin artırılması istiqamətində tədbirlər görmək;*

*15-8.1.3. xidmətlər zərfi çərçivəsində tibbi xidmətlərin əlçatanlığına təminat vermək;*

*15-8.1.4. bu Qanunla nəzərdə tutulmuş qaydada tibb müəssisəsi ilə tibbi xidmətlərin göstərilməsi haqqında müqavilə bağlamaq;* [lxxii]

*15-8.1.5. bu Qanunla və tibbi xidmətlərin göstərilməsi haqqında müqavilədə nəzərdə tutulmuş qaydada vəzifələrin tibb müəssisəsi tərəfindən yerinə yetirilmədiyi və ya qismən yerinə yetirildiyi təqdirdə, icbari tibbi sığorta çərçivəsində göstərilmiş tibbi xidmətlərin dəyərini ödəməmək, qismən ödəmək və ya tibb müəssisəsidən ödənilmiş vəsaitlərin geri qaytarılmasını tələb etmək.*

*15-8.2. İcbari tibbi sığorta sahəsində sığortaçının vəzifələri aşağıdakılardır:*

*15-8.2.1. icbari tibbi sığorta çərçivəsində göstərilən tibbi xidmətin keyfiyyətinin artırılması üçün tədbirlər görmək;*

*15-8.2.2. icbari tibbi sığortanın müntəzəmliyinə dövlət təminatı üçün tədbirlər görmək;*

*15-8.2.3. icbari tibbi sığorta çərçivəsində göstərilmiş tibbi xidmətlərə görə tibb müəssisəsinə sığorta ödənişini ödəmək;*

*15-8.2.4. sığortaolunanların səhhətinə dair məlumatların, həmçinin həkim sirri təşkil edən məlumatların mühafizəsini və məxfiliyini təmin etmək;*

*15-8.2.5. sığortaolunanların icbari tibbi sığorta ilə bağlı hüquq və mənafelərini qorumaq;*

*15-8.2.6. icbari tibbi sığorta üzrə sığorta ehtiyatlarını yaratmaq və icbari tibbi sığorta vəsaitlərini idarə etmək;* [lxxiii]

*15-8.2.7. sığortaolunanlara və sığortalılara icbari tibbi sığorta ilə bağlı ödənişsiz məlumat vermək.*

## *IV-III fəsil. İcbari tibbi sığortanın maliyyə təminatı*

### *Maddə 15-9. İcbari tibbi sığortanın maliyyə mənbələri*

*15-9.1. İcbari tibbi sığortanın maliyyə mənbələri aşağıdakılardan ibarətdir:* [lxxiv]

*15-9.1.1. sığorta haqları, o cümlədən dövlət büdcəsinin vəsaiti hesabına ödənilən sığorta haqları;* [lxxv]

~~*15-9.1.2. dövlət büdcəsinin vəsaiti;*~~ [lxxvi]

*15-9.1.3. subroqasiya hüququnun istifadəsi nəticəsində əldə edilən gəlirlər;*

*15-9.1.4. icbari tibbi sığorta üzrə sərbəst vəsaitlərin idarə olunması nəticəsində əldə edilən gəlirlər;*[lxxvii]

~~*15-9.1.5. bu Qanunun 15-28.3-cü maddəsinə əsasən müəyyən edilən əlavə xidmət haqqı;*~~

*15-9.1.6. müştərək maliyyələşmə məbləği;*[lxxviii]

~~*15-9.1.7. "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş sığorta haqqından ayırmalar;*~~

*15-9.1.8. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş qaydada cəlb edilmiş borc;*[lxxix]

*15-9.1.9. "Qrant haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq verilən qrantlar, ianələr və yardımlar;*

*15-9.1.10. bu Qanunun tələblərinin pozulması ilə bağlı tətbiq olunan cərimələrdən, maliyyə sanksiyalarından və hesablanmış faizlərdən daxilolmalar;* [lxxx]

*15-9.1.11. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən nəzərdə tutulan, habelə qanunla qadağan olunmayan digər mənbələr.*

*15-9.2. Bu Qanunun 15-2.2.1 – 15-2.2.3-cü maddələrində nəzərdə tutulmuş sığortalı tərəfindən bu Qanunun tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən vergi orqanları tərəfindən tətbiq edilən maliyyə sanksiyası məbləğinin 50 faizi və sığorta haqqının ödənilməsinin gecikdirilməsinə görə hesablanan faiz məbləğinin 30 faizi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) maddi-texniki bazasını və işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) hesabına köçürülür. Bu vəsaitlərin bölgüsü və onlardan istifadə qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunur.*[lxxxi]

***Maddə 15-10. İcbari tibbi sığorta üzrə sığorta haqları***[lxxxii]

*15-10.1. İcbari tibbi sığorta üzrə sığorta haqları aşağıdakı məbləğlərdə və dərəcələrdə müəyyən edilir:*

*15-10.1.1. bu Qanunun 15-2.1-ci maddəsində nəzərdə tutulmuş şəxslər üzrə – dövlət büdcəsinin vəsaiti hesabına tam təqvim ili üçün adambaşına 90 manat;*

*15-10.1.2. muzdla işləyən fiziki şəxslər, hərbi qulluqçular (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla), Azərbaycan Respublikasının Milli Məclisi və ya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən vəzifəyə təyin olunan şəxslər, seçkili ödənişli vəzifə tutan şəxslər üzrə – sığortalı tərəfindən işçinin əməkhaqqının 8000 manatadək olan hissəsindən 2 faiz, 8000 manatdan yuxarı olan hissəsindən 0,5 faiz, sığortaolunan tərəfindən əməkhaqqının 8000 manatadək olan hissəsindən 2 faiz, 8000 manatdan yuxarı olan hissəsindən 0,5 faiz;*

*15-10.1.3. bu Qanunun 15-2.2.2-ci maddəsində nəzərdə tutulmuş sığortaolunanlar üzrə – minimum aylıq əməkhaqqının 4 faizi;*

*15-10.1.4. bu Qanunun 15-2.2.3-cü maddəsində nəzərdə tutulmuş sığortaolunanlar üzrə – gəlirlərinin 8000 manatadək olan hissəsinin 2 faizi, 8000 manatdan yuxarı olan hissəsinin 1 faizi;*

*15-10.1.5. bu Qanunun 15-2.2.4-cü maddəsində nəzərdə tutulmuş sığortaolunanlar üzrə – minimum aylıq əməkhaqqının 48 faizi;*

*15-10.1.6. Azərbaycan Respublikasının ərazisində istehsal edilərək daxili istehlaka yönəldilən (topdan satılan) və Azərbaycan Respublikasının ərazisinə idxal olunan avtomobil benzininin, dizel yanacağının və maye qazın hər litrinə görə – 0,02 manat;*

*15-10.1.7. vergi ödəyiciləri tərəfindən araq (vodka), tündləşdirilmiş içkilər və tündləşdirilmiş içki materialları, likyor və likyor məmulatlarının hər litrinə görə tətbiq edilən aksiz dərəcəsinin 0,2 manatı, pivə (alkoqolsuz pivə istisna olmaqla) və pivə tərkibli digər içkilərin hər litrinə görə tətbiq edilən aksiz dərəcəsinin 0,05 manatı, siqarilla (nazik siqarlar) və tütündən hazırlanan siqaretlər və onun əvəzedicilərinin 1000 ədədinə görə tətbiq edilən aksiz dərəcəsinin 1,5 manatı və energetik içkilərin hər litrinə görə tətbiq edilən aksiz dərəcəsinin 0,1 manatı.*

*15-10.2. Bu Qanunun 15-10.1.1-ci maddəsində müəyyən olunmuş sığorta haqları 2021-ci il yanvarın 1-dən etibarən ildə bir dəfə ölkə üzrə istehlak qiymətləri indeksinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən illik səviyyəsinə uyğun olaraq indeksləşdirilir və indeksləşdirilən sığorta haqları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəsmi internet saytında yerləşdirilir.*

***Maddə 15-11. İcbari tibbi sığorta haqlarının hesablanması, ödənilməsi və hesabatın təqdim olunması***[lxxxiii]

*15-11.1. Bu Qanunun 15-9.1.6-cı maddəsində göstərilən maliyyə mənbələri istisna olmaqla, icbari tibbi sığortanın maliyyə mənbələri üzrə daxil olan vəsaitlər icbari tibbi sığorta fondunda cəmləşdirilir.*

*15-11.2. Bu Qanunun 15-10.1.1-ci maddəsində nəzərdə tutulan sığorta haqqı dövlət büdcəsinin vəsaiti hesabına müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən bu Qanunun 16-4.2-ci maddəsinin tələbləri nəzərə alınmaqla, hər ay üçün bərabər hissələrlə növbəti ayın 15-dən gec olmayaraq ödənilir.*

*15-11.3. Bu Qanunun 15-10.1.2-ci maddəsində nəzərdə tutulan sığorta haqqı sığortalı tərəfindən hər ay üçün hesablanır, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş forma üzrə bəyannamə təqdim edilir, əməkhaqqı ödənişləri ilə eyni vaxtda, lakin sonrakı ayın 15-dən gec olmayaraq tam məbləğdə ödənilir.*

*15-11.4. Bu Qanunun 15-10.1.3-cü maddəsində nəzərdə tutulan sığorta haqqı hər ay üçün hesablanır, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş forma üzrə bəyannamə təqdim edilir və sonrakı ayın 15-dən gec olmayaraq tam məbləğdə ödənilir.*

*15-11.5. Bu Qanunun 15-10.1.4-cü maddəsində nəzərdə tutulan sığorta haqqı hər ay üçün hesablanır, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş forma üzrə bəyannamə təqdim edilir və sonrakı ayın 15-dən gec olmayaraq tam məbləğdə ödənilir.*

*15-11.6. Bu Qanunun 15-10.1.5-ci maddəsində nəzərdə tutulan sığorta haqqı tam məbləğdə hər təqvim ili üçün yanvar ayının 15-dək icbari tibbi sığorta fonduna ödənilir.*

*15-11.7. Azərbaycan Respublikasının ərazisində benzinin, dizel yanacağının və maye qazın istehsalı və idxalı ilə məşğul olan vergi ödəyiciləri sığorta haqqını aylıq olaraq hesablayır, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş forma üzrə bəyannamə təqdim edir və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq ödəyirlər.*

*15-11.8. Bu Qanunun 15-10.1.7-ci maddəsində nəzərdə tutulan sığorta haqqı vergi ödəyicisi tərəfindən Azərbaycan Respublikası Vergi Məcəlləsinin 191.1-ci maddəsi ilə müəyyən edilən vaxtda ödənilir.*

*15-11.9. Bu Qanunun 15-10.1.1-ci maddəsində nəzərdə tutulan sığorta haqqının ümumi məbləğinin hesablanması qaydasını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müəyyən edir.*

*15-11.10. Bu Qanunun 15-2.2.4-cü maddəsində nəzərdə tutulan şəxslər tərəfindən sığorta haqqının ödənilməsi müddətləri pozulduqda, bu Qanunun 15-10.1.5-ci maddəsində müəyyən olunmuş sığorta haqqının 10 faiz həcmində əlavə sığorta haqqı ödəyirlər.*

*15-11.11. Bu Qanunun 15-11.10-cu maddəsində nəzərdə tutulan faizlər sığorta haqqının ödənilmədiyi bütün müddətə hər ay üçün, lakin bir ildən çox olmamaq şərtilə hesablanır. Ödənilməmiş sığorta haqları və əlavə sığorta haqları üzrə yaranmış borclar cari təqvim ili və əvvəlki son bir təqvim ili üçün hesablanır.*

*15-11.12. Bu Qanunun 15-2.2.4-cü maddəsində nəzərdə tutulan şəxslər tərəfindən sığorta haqqının ödəmək öhdəliyi təqvim ili ərzində yarandıqda, həmin şəxslər üçün sığorta haqqı 12-yə bölünməklə öhdəliyinin yarandığı ay da daxil olmaqla ilin sonunadək növbəti ayların sayına vurulmaqla hesablanır.*

## *IV-IV fəsil. İcbari tibbi sığortanın təşkili*

### *Maddə 15-12. İcbari tibbi sığorta üzrə tibbi xidmətlərin göstərilməsi qaydası*

*15-12.1. Tibbi xidmətlər sığortaolunanlara xidmətlər zərfinə uyğun olaraq icbari tibbi sığorta fondunun vəsaiti hesabına göstərilir.*

*15-12.2. İlkin səhiyyə xidməti, habelə təcili və təxirəsalınmaz tibbi yardım istisna olmaqla, sığorta haqları ödənilmədiyi hallarda xidmətlər zərfi çərçivəsində sığortaolunanlara tibbi xidmətlər onların öz vəsaiti hesabına göstərilir.*[lxxxiv]

~~*15-12.3. Bu Qanunun 15-2.3.1-ci və 15-2.3.2-ci maddəsində nəzərdə tutulan şəxslər təyin olunduğu və ya seçildiyi orqan (qurum), o cümlədən işəgötürən tərəfindən sığorta haqqının ödənilib ödənilməməsindən asılı olmayaraq sığortaolunan hesab edilir.*~~

### *Maddə 15-13. İcbari tibbi sığorta şəhadətnaməsi*[lxxxv]

*15-13.1. İcbari tibbi sığorta şəhadətnaməsi sığortaolunanın icbari tibbi sığorta çərçivəsində göstərilən tibbi xidmətlərdən istifadə hüququnu təsdiq edən və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) elektron informasiya sistemində yaradılan elektron sənəddir.*

*15-13.2. İcbari tibbi sığorta şəhadətnaməsinin nümunəvi forması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.*

### *Maddə 15-14. Sığorta limiti*

*Xidmətlər zərfində nəzərdə tutulduğu təqdirdə, təqvim ili ərzində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) sığorta hadisələrinə görə verdiyi sığorta təminatının ümumi say həddi sığorta limitindən yuxarı ola bilməz.* [lxxxvi]

### *Maddə 15-15. İcbari tibbi sığorta üzrə sığorta ödənişi*

*15-15.1. İlkin səhiyyə xidməti üzrə sığorta ödənişi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş qaydada dövlət tibb müəssisəsinə təhkim olunmuş şəxslərin sayına əsasən ödənilir.* [lxxxvii]

*15-15.2. Sığortaolunanların ilkin səhiyyə xidməti üzrə tibbi xidmət göstərən dövlət tibb müəssisəsinə təhkim olunma qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.* [lxxxviii]

*15-15.3. İlkin səhiyyə xidməti istisna olmaqla, xidmətlər zərfində nəzərdə tutulmuş digər tibbi xidmətlərin göstərilməsi üzrə sığorta ödənişləri xidmətlər zərfinin şərtlərinə və tariflərinə uyğun olaraq tibbi xidmətlərin göstərilməsi haqqında müqavilədə qeyd olunmuş həcmdə ödənilir.*[lxxxix]

*15-15.4. Sığorta ödənişlərinin həyata keçirilməsi şərtləri bu Qanunun 15-19-cu maddəsində nəzərdə tutulan müqavilə ilə müəyyən edilir.*

### *Maddə 15-16. İcbari tibbi sığorta üzrə sığorta ödənişindən imtinanın əsasları*

*15-16.0. İcbari tibbi sığorta ~~müqaviləsi~~ üzrə aşağıdakı hallarda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) sığorta ödənişinin verilməsindən imtina edir:* [xc]

*15-16.0.1. xidmətlər zərfinə daxil olmayan tibbi xidmətlərin göstərilməsi ilə bağlı olduqda;*

*15-16.0.2. tələb mənəvi zərərlə və ya gəlir itkisi ilə bağlı olduqda;*

*15-16.0.3. sığortaolunanın özü tərəfindən bilavasitə ödənilməli olduğu halda sığorta haqqının bu Qanunda nəzərdə tutulan qaydada hər hansı bir hissəsi ödənilməmiş olduğu təqdirdə;*

*15-16.0.4. sığorta limiti tam olaraq istifadə olunduqda;*

~~*15-16.0.5. sığorta müqaviləsinin müddəti bitdikdə.*~~

### *Maddə 15-17. Xidmətlər zərfinin tətbiqi dairəsi və strukturu*

*15-17.1. Xidmətlər zərfi ambulator-poliklinika şəraitində göstərilən tibbi xidmətləri və stasionar şəraitdə göstərilən tibbi xidmətləri əhatə edir.*

*15-17.2. Xidmətlər zərfi aşağıdakıları ehtiva edir:*[xci]

*15-17.2.1. xidmətlər zərfinə daxil olan tibbi xidmətlərin siyahısı;*

*15-17.2.2. xidmətlər zərfinə daxil olan tibbi xidmətlərin tarifi;*

*15-17.2.3. müştərək maliyyələşmə məbləği;* [xcii]

*15-17.2.4. sığorta limiti;*

*15-17.2.5. tibbi xidmətlərin göstərilməsi şərtləri.*

*15-17.3. Tibbi xidmətlərin xidmətlər zərfinə daxil edilməsi və ya tibbi xidmətlərin xidmətlər zərfindən çıxarılması meyarları və qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.*

*15-17.4. Xidmətlər zərfi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilir.*

***Maddə 15-18. Müştərək maliyyələşmə məbləği***[xciii]

*15-18.1. Müştərək maliyyələşmə məbləği tibbi xidmətləri göstərmiş tibb müəssisəsinə birbaşa ödənilir.*

*15-18.2. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən tibb müəssisəsinə ödənilən sığorta ödənişinin məbləği müştərək maliyyələşmə məbləği həcmində azaldılır.*

*15-18.3. Müştərək maliyyələşmə məbləği xidmətlər zərfi ilə müəyyən olunur.*

***Maddə 15-19. Tibbi xidmətlərin göstərilməsi haqqında müqavilə***

*Tibbi xidmətlərin göstərilməsi haqqında müqavilənin nümunəvi forması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.* [xciv]

***Maddə 15-20. Subroqasiya hüququ***

*15-20.1. Bu Qanunun məqsədləri üçün subroqasiya hüququ sığortaolunan üçün sığorta ödənişi həyata keçirilmiş olduğu təqdirdə, sığortaolunana dəymiş zərərə görə məsuliyyət daşıyan üçüncü şəxsə qarşı malik olduğu hüquqlardan və vasitələrdən həmin ödənişin həyata keçirilməsini təşkil etmiş müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) istifadə etmək hüququdur.*

~~*15-20.2. Xidmətlər zərfinin baza hissəsinin şamil edilmədiyi şəxslərə xidmətlər zərfinin baza hissəsində nəzərdə tutulan tibbi xidmətlər göstərildikdə, həmin şəxslərin eyni risklərdən sığortalanmasını nəzərdə tutan digər sığorta müqaviləsinin mövcud olduğu hallarda, icbari tibbi sığorta üzrə sığorta ödənişini həyata keçirmiş müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) həmin müqavilənin tərəfi olan sığortaçıya qarşı sığorta ödənişi miqdarında subroqasiya hüququndan istifadə etmək hüququna malikdir.*~~

~~*15-20.3. Xidmətlər zərfinin baza hissəsinin şamil edilmədiyi şəxslərə xidmətlər zərfinin baza hissəsində nəzərdə tutulan tibbi xidmətlər göstərildikdə, həmin şəxslərin eyni risklərdən sığortalanmasını nəzərdə tutan digər sığorta müqaviləsinin mövcud olmadığı hallarda, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tibb təchizatçısı və ya tibbi ərazi bölməsi tərəfindən göstərilən tibbi xidmətin dəyərini həmin şəxsdən tələb etmək hüququna malikdir. Xidmətlər zərfinin baza hissəsinin şamil edilmədiyi şəxslərin əhatə dairəsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.*~~

***Maddə 15-21. İcbari tibbi sığorta fondu***

*15-21.1. İcbari tibbi sığortanın maliyyə mənbələri icbari tibbi sığorta fondunda cəmləşdirilir və aşağıdakı məqsədlər üçün istifadə edilir:*

*15-21.1.1. icbari tibbi sığorta ödənişlərinə;*

*15-21.1.2. sığorta ehtiyatlarının yaradılmasına;*[xcv]

*15-21.1.3. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) idarəetmə və fəaliyyət xərclərinin (o cümlədən, saxlanma xərclərinin və işçilərin əməkhaqlarının) maliyyələşdirilməsinə (icbari tibbi sığorta fondunun gəlirlərinin 2 faizindən artıq olmamaqla);*

*15-21.1.4. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunan digər məqsədlərə.*[xcvi]

~~*15-21.2. Bu Qanunun 15-21.1-ci maddəsində nəzərdə tutulan icbari tibbi sığorta fondunun büdcəsi hər il üçün qanunla təsdiq olunur.*~~ [xcvii]

*15-21.3. İcbari tibbi sığorta fondunun sərbəst vəsaitləri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən yerli maliyyə bazarında investisiyaya yönəldilə bilər. İcbari tibbi sığorta fondunun vəsaitlərinin sərbəst vəsaitlərə aid edilməsi və həmin vəsaitlərlə investisiya əməliyyatlarının aparılması qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilir.*

*15-21.4. İlin sonuna icbari tibbi sığorta fondunun istifadə olunmamış vəsaitləri sığorta ehtiyatlarına yönəldilir. Bu vəsait xərclərin maliyyələşdirilməsinə yönəldilə bilər.*[xcviii]

*15-21.5. Bu Qanunun 15-21.1.2-ci maddəsində nəzərdə tutulan sığorta ehtiyatlarının yaradılması və onlardan istifadə qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.*[xcix]

### ~~*Maddə 15-22. İcbari tibbi sığorta üzrə sığorta ehtiyatlarının yaradılması*~~

~~*15-22.1. Sığorta ehtiyatları icbari tibbi sığorta üzrə sığorta ödənişlərinin həyata keçirilməsi üçün öhdəliklərin məcmusuna uyğun olaraq formalaşdırılır.*~~

~~*15-22.2. Sığorta ehtiyatları makroiqtisadi risk ehtiyatlarına və cari ehtiyatlara bölünür.*~~

~~*15-22.3. Makroiqtisadi risk ehtiyatları icbari tibbi sığortaya makroiqtisadi təsir risklərinin aradan qaldırılması və ya təsir dərəcəsinin aşağı salınması məqsədilə yaradılır. Makroiqtisadi risk ehtiyatları icbari tibbi fondunun gəlirlərinin 4 faizi həcmində təşkil edilir.*~~

~~*15-22.4. Cari ehtiyatlar icbari tibbi sığortada cari öhdəliklərin təmin edilməsi məqsədilə yaradılır. Cari ehtiyatlar icbari tibbi sığorta fondunun gəlirlərinin 6 faizi həcmində təşkil edilir.*~~

~~*15-22.5. Bu Qanunun 15-22.3-cü və 15-22.4-cü maddələrində nəzərdə tutulan ehtiyatlardan istifadəsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.*~~

### *Maddə 15-23. İcbari tibbi sığorta üzrə tibbi xidmətlərin tarifləri*

*15-23.1. İcbari tibbi sığorta çərçivəsində göstərilən tibbi xidmətlərin tarifləri xidmətlər zərfi ilə müəyyən edilir.* [c]

*15-23.2. İcbari tibbi sığorta çərçivəsində göstərilən tibbi xidmətlərin tariflərinin hesablanması qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.*

***Maddə 15-24. İcbari tibbi sığorta haqqının hesablanmasına və ödənilməsinə nəzarət***

*15-24.1. Bu Qanunun 15-2.2.1 – 15-2.2.3-cü maddələrində nəzərdə tutulmuş şəxslərə münasibətdə sığorta haqqının hesablanmasına və ödənilməsinə nəzarət, sığorta haqları üzrə hesabatın vaxtında təqdim edilməməsinə, hesablanmış sığorta haqlarının azaldılmasına və ya yayındırılmasına görə maliyyə sanksiyalarının tətbiqi, sığorta haqqı üzrə yaranmış borcların alınması, sığorta haqqının vaxtında ödənilməməsinə görə faizlərin hesablanması və artıq ödənilmiş sığorta haqqının qaytarılması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən Azərbaycan Respublikasının Vergi Məcəlləsində müəyyən olunmuş qaydada həyata keçirilir.* [ci]

*15-24.2. Bu Qanunun 15-24.1-ci maddəsində qeyd olunan şəxslər istisna olmaqla, digər şəxslərə münasibətdə sığorta haqqının hesablanmasına və ödənilməsinə nəzarət müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş qaydada həyata keçirilir.*

***Maddə 15-25. İcbari tibbi sığorta üzrə uçot və hesabat***

*15-25.1. İcbari tibbi sığorta vəsaitlərinin uçotunun aparılması və hesabatının təqdim olunması qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.*

~~*15-25.2. Tibb təchizatçısı və ya tibbi ərazi bölməsi tərəfindən icbari tibbi sığorta çərçivəsində göstərilmiş tibbi xidmətlərlə bağlı hesabatların təqdim edilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.*~~

## *IV-V fəsil. İcbari tibbi sığorta üzrə göstərilən tibbi xidmətlərə nəzarətin həyata keçirilməsi*

***Maddə 15-26. Tibbi xidmətin həcminə, müddətinə, keyfiyyətinə və şərtlərinə nəzarət***

*15-26.1. İcbari tibbi sığorta çərçivəsində və bu Qanunun 15-19-cu maddəsində nəzərdə tutulan müqavilənin şərtlərinə uyğun olaraq göstərilən tibbi xidmətin həcminə, müddətinə, keyfiyyətinə və şərtlərinə nəzarət müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həyata keçirilir.*

*15-26.2. İcbari tibbi sığorta çərçivəsində və bu Qanunun 15-19-cu maddəsində nəzərdə tutulan müqavilənin şərtlərinə uyğun olaraq göstərilən tibbi xidmətin həcminə, müddətinə, keyfiyyətinə və şərtlərinə nəzarət tibbi-iqtisadi ekspertiza və tibbi xidmətin keyfiyyətinin ekspertizası vasitəsilə həyata keçirilir.* [cii]

*15-26.3. Tibbi-iqtisadi ekspertiza göstərilmiş tibbi xidmətin müddətlərinin və həcminin, o cümlədən tibb müəssisəsi tərəfindən hesablanmış sığorta ödənişi məbləğinin tibbi xidmətlərin göstərilməsi haqqında müqavilənin şərtlərinə, ilkin tibbi sənədlərə və tibb müəssisəsinin hesabat sənədlərinə uyğunluğunu müəyyən edir. Tibbi-iqtisadi ekspertizanın aparılması və nəticələrinin rəsmiləşdirilməsi qaydası, habelə ekspertizanı aparan ekspertlərə dair tələblər, ilkin tibbi sənədlərin siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.*[ciii]

*15-26.4. Tibbi xidmətin keyfiyyətinin ekspertizası tibbi xidmətlərin vaxtında göstərilib göstərilməməsinin, o cümlədən profilaktika, diaqnostika, müalicə və reabilitasiya metodlarının düzgün seçilib-seçilməməsinin, habelə tibbi xidmətin göstərilməsi zamanı yol verilən pozuntuların aşkar edilməsi məqsədilə aparılır. Tibbi xidmətin keyfiyyətinin ekspertizasının aparılması və nəticələrinin rəsmiləşdirilməsi qaydası, habelə ekspertizanı aparan ekspertlərə dair tələblər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.*

### *Maddə 15-27. İcbari tibbi sığorta üzrə məlumat bazası*

*15-27.1. İcbari tibbi sığortanın tətbiqi ilə bağlı əməliyyatların elektron qaydada həyata keçirilməsinin təmin edilməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən icbari tibbi sığorta üzrə məlumat bazası (elektron informasiya ehtiyatı) yaradılır.*

*15-27.2. İcbari tibbi sığorta üzrə məlumat bazasının (elektron informasiya ehtiyatının) formalaşdırılması və istifadə qaydası, o cümlədən həmin məlumat bazasına (elektron informasiya ehtiyatına) inteqrasiya edilməli olan informasiya sistemlərinin və resurslarının siyahısı, həmin məlumatlara buraxılış dərəcəsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.*

### *Maddə 15-28. İcbari tibbi sığorta üzrə göndəriş sisteminin tətbiqi*

*15-28.1. Xidmətlər zərfində sığortaolunanın tibbi xidmətlərdən yararlanmaq üçün bilavasitə müraciət etmək hüququ nəzərdə tutulduğu hallar istisna olmaqla, sığortaolunanların ambulator-poliklinik, laborator, funksional-diaqnostik tibbi xidmətlərdən istifadəsinə ilkin səhiyyə xidmətlərini göstərən dövlət tibb müəssisəsinin göndərişinə əsasən yol verilir.*[civ]

*15-28.2. Sığortaolunanların xidmətlər zərfi çərçivəsində stasionar tibbi xidmətlərdən istifadəsinə təcili və təxirəsalınmaz tibbi yardım xidməti göstərən tibb müəssisəsinin, habelə ambulator-poliklinika müəssisəsinin göndərişinə əsasən yol verilir.* [cv]

*15-28.3. İlkin səhiyyə xidmətinə müraciət etmədən birbaşa ambulator-poliklinik, laborator, funksional-diaqnostik tibbi xidmətlərdən istifadə etdikdə sığortaolunan müştərək maliyyələşmə məbləği ödəməlidir.*[cvi]

*15-28.4. Sığortaolunan icbari tibbi sığorta çərçivəsində tibbi xidmətlərdən istifadə etmək məqsədilə yönləndirildiyi tibbi ərazi bölməsindən kənar yerləşən dövlət tibb müəssisəsinə müraciət etdikdə müştərək maliyyələşmə məbləği ödəməlidir.*[cvii]

***Maddə 15-29. Gözləmə müddəti***[cviii]

*Xidmətlər zərfində nəzərdə tutulduğu təqdirdə, xidmətlər zərfinə daxil olan tibbi xidmətlərin göstərilməsinə gözləmə müddəti tətbiq edilir. Gözləmə müddətinin tətbiq edildiyi tibbi xidmətlər və gözləmə müddətinin hesablanması qaydası xidmətlər zərfi ilə müəyyən edilir.*

## V f ə s i l
## YEKUN MÜDDƏALARI

### M a d d ə 1 6 . **Tibbi sığorta sistemində tərəflərin məsuliyyəti**

*16.1. Mülkiyyət formasından asılı olmayaraq, müəssisə, idarə və təşkilatlar tərəfindən icbari tibbi sığorta üzrə sığorta haqlarının gizlədilməsi və ya ödənilməsi müddətlərinin pozulması Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş hallarda inzibati məsuliyyət yaradır.* [cix]

*16.2.* Tibb *müəssisəsi* və ya özəl tibbi praktika ilə məşğul olan şəxs *könüllü* tibbi sığorta müqaviləsinin şərtlərinə və qanunvericiliyin tələblərinə uyğun olaraq göstərilən tibbi xidmətin həcminə və keyfiyyətinə görə, eləcə də sığorta olunana tibbi xidmət göstərməkdən imtina etməyə görə məsuliyyət daşıyırlar. [cx]

*16.3.* Qanunvericilikdə müəyyən olunmuş qaydada fəaliyyət göstərən tibb *müəssisələri* və ya özəl tibbi praktika ilə məşğul olan şəxslər *könüllü* tibbi sığorta müqaviləsinin şərtlərini pozduqda *könüllü sığortaçı* göstərilən tibbi xidmətin haqqını tam və ya qismən ödəməmək hüququna malikdir. [cxi]

*16.4. Könüllü tibbi sığorta müqaviləsinin şərtlərinin yerinə yetirilməsinə görə sığortaçı* sığorta olunan və ya sığortalı qarşısında məsuliyyət daşıyır. [cxii]

*16.5.* Tibbi sığorta sistemində mübahisələr Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş qaydada, o cümlədən məhkəmə qaydasında həll edilir.[cxiii]

***Maddə 16-1. Sənədlərin saxlanması qaydası və müddəti*** [cxiv]

*16-1.1. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum), tibb müəssisələri sığorta statistikasını, sənədlərin uçotunu aparmalı və sənədlərin saxlanmasını təmin etməlidirlər.* [cxv]

*16-1.2. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum), tibb müəssisələri tərəfindən həyata keçirilən sığorta əməliyyatlarına dair sənədləri, habelə belə əməliyyatlar üzrə elektron daşıyıcılarda olan məlumatları müvafiq hüquq münasibətlərinə xitam verildikdən sonra ən azı beş il müddətində saxlamalıdırlar.*

***Maddə 16-2. İcbari tibbi sığortanın və dövlət proqramlarının qarşılıqlı əlaqəsi***

*Dövlət proqramları vasitəsilə maliyyələşən tibbi xidmət növlərinə icbari tibbi sığorta şamil edilmir.*

***Maddə 16-3. Cərimələrin və faizlərin istifadəsi qaydası***

*Bu Qanunun tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən tətbiq edilən cərimələrdən və faizlərdən toplanan vəsaitin 25 faizi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanının (qurumun) işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) maddi-texniki bazasının yaxşılaşdırılması məqsədi ilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) hesablarına köçürülür. Bu vəsaitlərin bölgüsü və onlardan istifadə qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunur.*

***Maddə 16-4. Keçid müddəaları***[cxvi]

*16-4.1. İcbari tibbi sığorta ölkənin inzibati ərazi vahidləri üzrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş ardıcıllıq nəzərə alınmaqla, 2020-ci ildə tamamlanmaq şərtilə mərhələli şəkildə tətbiq olunur.*

*16-4.2. Bu Qanunun 16-4.1-ci maddəsinə əsasən müəyyən edilmiş mərhələlərə uyğun olaraq, bu Qanunun 15-10.1.1-ci maddəsində nəzərdə tutulan sığorta haqqının ödənilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.*

*16-4.3. Bu Qanunun 15-10.1.2-ci maddəsində nəzərdə tutulan əməkhaqqının 8000 manatadək hissəsindən ödənilən sığorta haqqının məbləğinə neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən sahələr üzrə 2021-ci il yanvarın 1-dək 50 faiz güzəşt tətbiq edilir. Bu maddənin məqsədləri üçün neft-qaz sahəsində fəaliyyətin və qeyri-dövlət sektorunun meyarları Azərbaycan Respublikasının Vergi Məcəlləsinə və "Sosial sığorta*

*haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada müəyyən edilir.*

*16-4.4. Bu Qanunun 15-9.1.6-cı, 15-10.1.2-ci, 15-10.1.3-cü, 15-10.1.4-cü, 15-10.1.6-cı, 15-17.2.3-cü, 15-18-ci maddələri, habelə müştərək maliyyələşmə məbləğinə aid hissələrdə 15-28.3-cü və 15-28.4-cü maddələri 2020-ci il aprelin 1-dən qüvvəyə minir.*

*16-4.5. Bu Qanunun 15-10.1.5-ci maddəsi 2023-cü il yanvarın 1-dən qüvvəyə minir.*

*16-4.6. Bu Qanun (16-4.4-cü və 16-4.5-ci maddələrdə nəzərdə tutulan maddələr istisna olmaqla) 2020-ci il yanvarın 1-dən qüvvəyə minir.*

M a d d ə 1 7 . **Bu Qanunun pozulmasına görə məsuliyyət**

Bu Qanunun pozulmasında təqsirli olan hüquqi və fiziki şəxslər Azərbaycan Respublikasının Mülki, İnzibati Xətalar və Cinayət məcəllələrində nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyırlar.[cxvii]

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 28 oktyabr 1999-cu il
№ 725-IQ

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 20 fevral 2001-ci il tarixli 86-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 3, maddə 141**)
2. 7 dekabr 2007-ci il tarixli 503-IIIQD nömrəli Azərbaycan Respublikası Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, №12, maddə 1212**)
3. 2 oktyabr 2008-ci il tarixli 699-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 16 noyabr 2008-ci il, № 257, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 11, maddə 960)**
4. 4 aprel 2014-cü il tarixli **925-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 25 aprel 2014-cü il, № 84, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 04, maddə 331)**
5. 24 fevral 2015-ci il tarixli **1211-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 4 aprel 2015-ci il, № 069, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 4, maddə 352)**
6. 4 mart 2016-cı il tarixli **153-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 13 mart 2016-cı il, № 57, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 03, maddə 419)**
7. 3 aprel 2018-ci il tarixli **1064-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 25 aprel 2018-ci il, № 92, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, №4, maddə 651)**
8. 28 dekabr 2018-ci il tarixli **1419-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 30 yanvar 2019-cu il, № 23, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 01, maddə 36)**
9. 28 dekabr 2018-ci il tarixli **1441-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 3 fevral 2019-cu il, № 27, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 01, maddə 47)**
10. 3 dekabr 2019-cu il tarixli **1718-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 26 dekabr 2019-cu il, № 288)**

## QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

[i] 28 dekabr 2018-ci il tarixli **1441-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 3 fevral 2019-cu il, № 27, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 01, maddə 47)** ilə 1-ci

maddə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~M a d d ə 1 . **Tibbi sığorta və onun formaları**~~

~~Tibbi sığorta sağlamlığın qorunması sahəsində əhalinin sosial müdafiəsi forması olmaqla, sığorta hadisəsi baş verdikdə Azərbaycan Respublikası əhalisinin tibbi və dərman yardımı almasına təminat verir.~~

~~Tibbi sığorta icbari və könüllü formada həyata keçirilir.~~

~~İcbari tibbi sığorta dövlət sosial sığortasının tərkib hissəsi olmaqla, icbari tibbi sığorta proqramına müvafiq həcmdə əhalinin tibbi və dərman yardımı almasını təmin edir.~~

~~Könüllü tibbi sığorta icbari tibbi sığorta proqramında müəyyənləşdirildiyindən əlavə könüllü tibbi sığorta müqaviləsi əsasında əhalinin tibbi və digər xidmətlər almasını təmin edir.~~

[ii] 3 dekabr 2019-cu il tarixli **1718-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 26 dekabr 2019-cu il, № 288)** ilə 1.0.1-ci maddədən "**baza və əlavə hissələrdən ibarət olmaqla**" sözləri çıxarılmışdır.

[iii] 3 dekabr 2019-cu il tarixli **1718-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 26 dekabr 2019-cu il, № 288)** ilə 1.0.2-ci, 1.0.3-cü, 1.0.11-ci və 1.0.12-ci maddələr ləğv edilmişdir.

[iv] 3 dekabr 2019-cu il tarixli **1718-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 26 dekabr 2019-cu il, № 288)** ilə 1.0.5-ci maddədə "**vermək**" sözü "**etmək**" sözü ilə əvəz edilmişdir.

[v] 3 dekabr 2019-cu il tarixli **1718-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 26 dekabr 2019-cu il, № 288)** ilə 1.0.6-cı maddə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~*1.0.6. **sığortalı** — sığorta müqaviləsini bağlamaq vəzifəsi daşıyan, öz adından və ya sığortaolunan adından sığorta haqqı ödəyən və sığorta obyektinin sığorta etdirilməsində sığorta marağı olan şəxs və ya bu Qanunla nəzərdə tutulmuş hallarda sığorta müqaviləsinin tərəfi;*~~

[vi] 3 dekabr 2019-cu il tarixli **1718-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 26 dekabr 2019-cu il, № 288)** ilə 1.0.7-ci maddə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~*1.0.7. **sığortaolunan** — sağlamlığı icbari və ya könüllü qaydada sığortalanmış Azərbaycan Respublikasının vətəndaşları, Azərbaycan Respublikasında daimi və ya müvəqqəti yaşayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər;*~~

[vii] 3 dekabr 2019-cu il tarixli **1718-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 26 dekabr 2019-cu il, № 288)** ilə 1.0.8-ci maddə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~*1.0.8. **sığorta ödənişi** - sığorta hadisəsi baş verdikdə icbari tibbi sığortaya münasibətdə xidmətlər zərfinə və tariflərə, könüllü tibbi sığortaya münasibətdə isə könüllü tibbi sığorta müqaviləsinə uyğun olaraq bu Qanunla nəzərdə tutulmuş qaydada tibb təchizatçısına, tibbi ərazi bölməsinə və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxsə ödənilən maliyyə vəsaiti;*~~

[viii] 3 dekabr 2019-cu il tarixli **1718-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 26 dekabr 2019-cu il, № 288)** ilə 1.0.9-cu maddədə "**sığorta ili**" sözləri "**təqvim ili**" sözləri ilə əvəz edilmişdir.

[ix] 3 dekabr 2019-cu il tarixli **1718-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 26 dekabr 2019-cu il, № 288)** ilə 1.0.10-ci maddə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~*1.0.10. **sığorta hadisəsi** — bu Qanuna əsasən sığorta ödənişinin ödənilməsi üçün əsas olan, sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində baş verən hadisə və ya yaranan hal (o cümlədən profilaktik müalicə üsullarının tətbiqi);*~~

[x] 3 dekabr 2019-cu il tarixli **1718-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 26**

**dekabr 2019-cu il, № 288)** ilə 1.0.13-cü maddədə "**maliyyələşdirilməsi**" sözü "**göstərilməsi**" sözü ilə, "**tibb təchizatçısı və ya tibbi ərazi bölməsi**" sözləri "**tibb müəssisəsi**" sözləri ilə əvəz edilmişdir.

[xi] 3 dekabr 2019-cu il tarixli **1718-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 26 dekabr 2019-cu il, № 288)** ilə 1.0.14-cü maddə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~*1.0.14. **tibbi ərazi bölməsi** — Azərbaycan Respublikasında dövlət səhiyyə sisteminə daxil olan və icbari tibbi sığortanın tətbiq olunduğu tibb müəssisəsi.*~~

[xii] 3 dekabr 2019-cu il tarixli **1718-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 26 dekabr 2019-cu il, № 288)** ilə yeni məzmunda 1.0.15-ci və 1.0.16-cı maddələr əlavə edilmişdir.

[xiii] 28 dekabr 2018-ci il tarixli **1441-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 3 fevral 2019-cu il, № 27, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 01, maddə 47)** ilə yeni məzmunda 1-1-ci maddə əlavə edilmişdir.

[xiv] 2 oktyabr 2008-ci il tarixli 699-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 16 noyabr 2008-ci il, № 257, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 11, maddə 960)** ilə 2-ci maddədə "**Qanundan,**" sözündən sonra "**Azərbaycan Respublikasının Mülki Məcəlləsindən, "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunundan,**" sözləri əlavə edilmişdir.

24 fevral 2015-ci il tarixli **1211-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 4 aprel 2015-ci il, № 069, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 4, maddə 352)** ilə 2-ci maddədə "**Azərbaycan Respublikasının Qanunundan**" sözləri "**, "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının qanunlarından**" sözləri ilə əvəz edilmişdir.

3 dekabr 2019-cu il tarixli **1718-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 26 dekabr 2019-cu il, № 288)** ilə 2.1-ci maddədə "**, "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının qanunlarından**" sözləri "**Azərbaycan Respublikasının Qanunundan**" sözləri ilə əvəz edilmişdir.

[xv] 28 dekabr 2018-ci il tarixli **1419-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 30 yanvar 2019-cu il, № 23, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 01, maddə 36)** ilə 2-ci maddənin mətni 2.1-ci maddə hesab edilmişdir və yeni məzmunda 2.2-ci maddə əlavə edilmişdir.

[xvi] 28 dekabr 2018-ci il tarixli **1441-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 3 fevral 2019-cu il, № 27, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 01, maddə 47)** ilə yeni məzmunda 2-1-ci maddə əlavə edilmişdir.

[xvii] 3 dekabr 2019-cu il tarixli **1718-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 26 dekabr 2019-cu il, № 288)** ilə 2-1-ci maddədə "**, tibb təchizatçıları və tibbi ərazi bölmələridir**" sözləri "**və tibb müəssisələridir"** sözləri ilə əvəz edilmişdir.

[xviii] 28 dekabr 2018-ci il tarixli **1441-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 3 fevral 2019-cu il, № 27, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 01, maddə 47)** ilə II fəslin adı yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~**II fəsil. TİBBİ SIĞORTANIN SİSTEMİ**~~

[xix] 20 fevral 2001-ci il tarixli 86-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 3, maddə 141**) ilə 3-cü maddənin birinci hissəsində "**fərdi tibbi fəaliyyətlə**" sözləri "**özəl tibbi praktika ilə**" sözləri ilə əvəz edilmişdir.

28 dekabr 2018-ci il tarixli **1441-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 3**

**fevral 2019-cu il, № 27, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 01, maddə 47)** ilə 3-cü maddə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~M a d d ə 3 . **Tibbi sığortanın subyektləri**~~

~~Tibbi sığortanın subyektləri sığorta olunanlar, sığortalı, tibbi sığorta təşkilatları, tibb müəssisələri və qanunvericilikdə müəyyən olunmuş qaydada özəl tibbi praktika ilə məşğul olan şəxslərdir.~~

~~İcbari tibbi sığorta sistemində sığortalılar:~~

~~işləməyən vətəndaşlar üçün - müvafiq icra hakimiyyəti orqanları və müvafiq sosial proqramlar çərçivəsində yerli özünüidarə orqanları;~~

~~işləyən vətəndaşlar üçün - mülkiyyət formasından asılı olmayaraq bütün hüquqi şəxslər və qanunvericilikdə müəyyən olunmuş qaydada sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər.~~

~~Könüllü tibbi sığortada sığortalılar - vətəndaşlar və vətəndaşların mənafeyini ifadə edən hüquqi şəxslərdir.~~

~~Tibbi sığorta sistemindəki tibb müəssisələrinə xüsusi razılığı olan müalicə-profilaktika, elmi-tədqiqat müəssisələri, eləcə də qanunvericilikdə müəyyən olunmuş qaydada tibbi yardım göstərən digər hüquqi şəxslər daxildirlər.~~

~~Tibbi sığortanın subyektləri arasındakı mübahisələr qanunvericilikdə müəyyən olunmuş qaydada həll edilir.~~

[xx] 28 dekabr 2018-ci il tarixli **1441-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 3 fevral 2019-cu il, № 27, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 01, maddə 47)** ilə 4-cü maddənin adına, 4.1-ci, 4.3-cü və 4.4-cü maddələrdə "**Tibbi**" sözü "**Könüllü tibbi**" sözləri ilə əvəz edilmişdir.

[xxi] 28 dekabr 2018-ci il tarixli **1441-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 3 fevral 2019-cu il, № 27, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 01, maddə 47)** ilə 4-cü maddənin birinci – beşinci hissələr 4.1-ci – 4.5-ci maddələr hesab edilmişdir.

[xxii] 28 dekabr 2018-ci il tarixli **1441-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 3 fevral 2019-cu il, № 27, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 01, maddə 47)** ilə 4.2-ci maddədə "**Tibbi**" sözü "**Könüllü tibbi**" sözləri ilə, "**tibbi sığorta təşkilatları**" sözləri "**sığortaçılar**" sözü ilə əvəz edilmişdir.

[xxiii] 3 dekabr 2019-cu il tarixli **1718-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 26 dekabr 2019-cu il, № 288)** ilə 4.4-cü, 15-4.1.1-ci, 15-5.2.1-ci, 15-12.3-cü, 15-16.0.5-ci, 15-20.2-ci, 15-20.3-cü, 15-22-ci və 15-25.2-ci maddələr ləğv edilmişdir.

[xxiv] 28 dekabr 2018-ci il tarixli **1441-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 3 fevral 2019-cu il, № 27, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 01, maddə 47)** ilə 4.5-ci maddədə "**Tibbi**" sözü "**Könüllü tibbi**" sözləri ilə əvəz edilmişdir və həmin maddədən "**və icbari tibbi sığorta münasibətlərinin şamil edilmədiyi şəxslərin kateqoriyaları**" sözləri çıxarılmışdır.

[xxv] 28 dekabr 2018-ci il tarixli **1441-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 3 fevral 2019-cu il, № 27, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 01, maddə 47)** ilə 5-ci maddənin adında, 5.1-ci və 5.4-cü maddələrdə "**Tibbi**" sözü "**Könüllü tibbi**" sözləri ilə əvəz edilmişdir.

[xxvi] 28 dekabr 2018-ci il tarixli **1441-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 3 fevral 2019-cu il, № 27, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 01, maddə 47)** ilə 5-ci maddənin birinci – dördüncü hissələr müvafiq olaraq 5.1-ci – 5.4-cü maddələr hesab edilmişdir.

[xxvii] 28 dekabr 2018-ci il tarixli **1441-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 3 fevral 2019-cu il, № 27, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 01, maddə 47)** ilə 5.2-ci maddədə "**İcbari və könüllü**" sözləri "**Könüllü**" sözü ilə əvəz edilmişdir.

[xxviii] 28 dekabr 2018-ci il tarixli **1441-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 3 fevral 2019-cu il, № 27, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 01, maddə 47)** ilə 5.3-cü maddədə "**Tibbi**" sözü "**Könüllü tibbi**" sözləri ilə, "**müəssisəsinə**" sözü "**təchizatçılarına**" sözü ilə əvəz edilmişdir.

3 dekabr 2019-cu il tarixli **1718-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 26 dekabr 2019-cu il, № 288)** ilə 5.3-cü maddədə "**təchizatçılarına**" sözü "**müəssisələrinə**" sözü ilə əvəz edilmişdir.

xxix 4 mart 2016-cı il tarixli **153-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 13 mart 2016-cı il, № 57, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 03, maddə 419)** ilə 6-cı maddənin doqquzuncu abzası ləğv edilmişdir.

7 dekabr 2007-ci il tarixli 503-IIIQD nömrəli Azərbaycan Respublikası Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, №12, maddə 1212**) ilə 6-cı maddənin, birinci hissəsinin ikinci abzasında **"müəyyən etdiyi qaydada"** sözlərindən sonra və üçüncü abzasının əvvəlinə **"könüllü"** sözü əlavə edilmişdir, ikinci hissəsinin ikinci, üçüncü və dördüncü abzasları müvafiq olaraq üçüncü, dördüncü və beşinci abzaslar hesab edilmişdir və yeni məzmunda ikinci abzas əlavə edilmişdir və ikinci hissəsinin beşinci abzasında "**sığorta haqlarının"** sözlərindən əvvəl **"könüllü tibbi sığorta müqaviləsi üzrə"** sözləri əlavə edilmişdir.

28 dekabr 2018-ci il tarixli **1441-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 3 fevral 2019-cu il, № 27, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 01, maddə 47)** ilə 6-cı maddə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:
~~M a d d ə 6~~ **~~. sığortalının hüquq və vəzifələri~~**
~~sığortalının hüquqları aşağıdakılardır:~~
~~müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada könüllü tibbi sığorta müqaviləsi bağlamaq və ya onu ləğv etmək;~~
~~könüllü tibbi sığorta təşkilatını sərbəst seçmək;~~
~~tibbi sığorta müqaviləsinin şərtlərinin yerinə yetirilməsinə nəzarət etmək.~~
~~sığortalının vəzifələri aşağıdakılardır:~~
~~müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada icbari tibbi sığorta müqaviləsi bağlamaq;~~
~~icbari tibbi sığorta proqramına uyğun olaraq sığorta haqlarını vaxtında ödəmək;~~
~~sığorta olunanların sağlamlığının vəziyyətinin göstəriciləri haqqında tibbi sığorta təşkilatına məlumat vermək;~~
~~könüllü tibbi sığorta müqaviləsi üzrə sığorta haqlarının tam məbləğdə və vaxtında ödənilməsi barədə müvafiq icra hakimiyyəti orqanına məlumat vermək.~~
~~Tibbi sığorta müqaviləsində sığortalı üçün digər vəzifələr də nəzərdə tutula bilər.~~

xxx 3 dekabr 2019-cu il tarixli **1718-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 26 dekabr 2019-cu il, № 288)** ilə 6.1.1-ci maddədən "**müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada**" sözləri çıxarılmışdır.

xxxi 28 dekabr 2018-ci il tarixli **1441-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 3 fevral 2019-cu il, № 27, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 01, maddə 47)** ilə 7-ci maddə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:
~~M a d d ə 7 .~~ **~~Tibbi sığorta sistemində sığorta olunan vətəndaşların hüquqları~~**
~~Tibbi sığorta sistemində sığorta olunan vətəndaşların hüquqları aşağıdakılardır:~~
~~tibbi sığorta şəhadətnaməsini aldıqları andan qanunvericilikdə müəyyən olunmuş hüquqlardan istifadə etmək;~~
~~tibbi sığorta müqaviləsi ilə müəyyən edilən tibbi yardım növlərinə və həcminə uyğun olaraq tibbi sığorta sisteminə daxil olan tibb müəssisələrindən hər hansı birini və həkimi seçmək;~~
~~profilaktik yardım da daxil olmaqla, Azərbaycan Respublikasının bütün ərazisində icbari tibbi sığorta proqramındakından az olmayan həcmdə tibbi yardım almaq;~~
~~icbari tibbi sığorta müqaviləsinin şərtlərinə uyğun olan tibbi xidmətdən istifadə etmək;~~
~~tibbi sığorta müqaviləsinə əsasən müraciət etdiyi tibb müəssisəsindən sağlamlığının vəziyyəti, eləcə də tətbiq olunan müalicə metodları və onların nəticələri barədə məlumat almaq;~~
~~sığortalı, tibbi sığorta təşkilatına, tibb müəssisəsinə, tibbi sığorta müqaviləsinin şərtlərindən asılı olmayaraq, onların təqsiri üzündən vurulmuş zərərin ödənilməsi də daxil olmaqla, qanunvericilikdə müəyyən olunmuş qaydada iddia qaldırmaq;~~

~~könüllü tibbi sığorta müqaviləsinin şərtlərində müəyyən edilmişsə, istifadə edilməyən sığorta haqqının bir hissəsini geri almaq.~~

~~Vətəndaşların tibbi sığorta ilə bağlı mənafeyini müvafiq icra hakimiyyəti orqanı, tibbi sığorta təşkilatları, həmkarlar ittifaqı təşkilatları və digər ictimai birliklər müdafiə edir.~~

~~Azərbaycan Respublikasından kənarda yaşayan Azərbaycan Respublikası vətəndaşlarının tibbi sığortası Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrə əsasən həyata keçirilir.~~

[xxxii] 3 dekabr 2019-cu il tarixli **1718-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 26 dekabr 2019-cu il, № 288)** ilə 7.1.2-ci, 7.1.4-cü, 7.1.5-ci, 13.1.1-ci, 13.1.2-ci, 13.2.1-ci, 13.2.3-cü və 15-ci maddələrdə ismin müvafiq hallarında "**tibb təchizatçısı və ya tibbi ərazi bölməsi**" sözləri ismin müvafiq hallarında "**tibb müəssisəsi**" sözləri ilə əvəz edilmişdir.

[xxxiii] 28 dekabr 2018-ci il tarixli **1441-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 3 fevral 2019-cu il, № 27, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 01, maddə 47)** ilə 8-ci maddənin adına və 8.2-ci maddəyə "**tibbi**" sözündən əvvəl "**könüllü**" sözü əlavə edilmişdir.

[xxxiv] 28 dekabr 2018-ci il tarixli **1441-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 3 fevral 2019-cu il, № 27, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 01, maddə 47)** ilə 8-ci maddənin birinci və ikinci hissələr müvafiq olaraq 8.1-ci və 8.2-ci maddələr hesab edilmişdir və 8.1-ci maddədə "**tibbi sığorta sistemində**" sözləri "**könüllü sığorta üzrə**" sözləri ilə əvəz edilmişdir.

[xxxv] 28 dekabr 2018-ci il tarixli **1441-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 3 fevral 2019-cu il, № 27, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 01, maddə 47)** ilə 9-cu, 11-ci, 12-ci və 14-cü maddələr ləğv edilmişdir.

[xxxvi] 28 dekabr 2018-ci il tarixli **1441-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 3 fevral 2019-cu il, № 27, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 01, maddə 47)** ilə 10-cu maddənin adında "**Tibbi**" sözü "**Könüllü tibbi**" sözləri ilə əvəz edilmişdir.

[xxxvii] 28 dekabr 2018-ci il tarixli **1441-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 3 fevral 2019-cu il, № 27, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 01, maddə 47)** ilə 10-cu maddənin birinci – ikinci hissələri ləğv edilmişdir.

[xxxviii] 7 dekabr 2007-ci il tarixli 503-IIIQD nömrəli Azərbaycan Respublikası Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, №12, maddə 1212**) ilə 11-ci maddədə **"növünü, həcmini"** sözlərindən sonra **"(baza zərfini)"** sözləri əlavə edilmişdir.

[xxxix] 28 dekabr 2018-ci il tarixli **1441-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 3 fevral 2019-cu il, № 27, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 01, maddə 47)** ilə III fəslin adı yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:
~~I I I f ə s i l TİBBİ SIĞORTA TƏŞKİLATLARININ FƏALİYYƏTİ~~

[xl] 7 dekabr 2007-ci il tarixli 503-IIIQD nömrəli Azərbaycan Respublikası Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, №12, maddə 1212**) ilə 12-ci maddənin birinci hissəsi yeni redaksiyada verilmişdir.
əvvəlki redaksiyada deyilirdi:
~~Tibbi sığorta təşkilatı - mülkiyyət formasından asılı olmayaraq tibbi sığortanı həyata keçirmək üçün qanunvericilikdə müəyyən olunmuş qaydada xüsusi razılıq almaqla fəaliyyət göstərən və müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilən zəruri nizamnamə fonduna malik olan sığorta təşkilatıdır.~~

[xli] 7 dekabr 2007-ci il tarixli 503-IIIQD nömrəli Azərbaycan Respublikası Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, №12, maddə 1212**) ilə 12-ci maddənin ikinci hissəsi yeni redaksiyada verilmişdir.
əvvəlki redaksiyada deyilirdi:

~~Tibbi sığorta təşkilatları səhiyyə sisteminə daxil deyil.~~

3 aprel 2018-ci il tarixli **1064-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 25 aprel 2018-ci il, № 92, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, №4, maddə 651)** ilə 12-ci maddənin ikinci hissəsində "**dövlət orqanıdır**" sözləri "**qurumdur**" sözü ilə əvəz edilmişdir.

[xlii] 7 dekabr 2007-ci il tarixli 503-IIIQD nömrəli Azərbaycan Respublikası Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, №12, maddə 1212**) ilə 12-ci maddənin üçüncü hissəsində **"Müvafiq icra hakimiyyəti orqanı və tibb"** sözləri **"Tibb"** sözü ilə əvəz edilmişdir.

[xliii] 4 aprel 2014-cü il tarixli **925-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 25 aprel 2014-cü il, № 84, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 04, maddə 331)** ilə 13-cü maddənin ikinci hissəsi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Tibbi sığorta təşkilatı sabit fəaliyyətini təmin etmək məqsədi ilə Azərbaycan Respublikası qanunvericiliyində müəyyən olunmuş qaydada ehtiyat fondu yarada bilər.~~

24 fevral 2015-ci il tarixli **1211-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 4 aprel 2015-ci il, № 069, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 4, maddə 352)** ilə 13-cü maddənin üçüncü hissəsinə yeni məzmunda ikinci bənd əlavə edilmişdir.

28 dekabr 2018-ci il tarixli **1441-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 3 fevral 2019-cu il, № 27, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 01, maddə 47)** ilə 13-cü maddə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~M a d d ə 1 3 . **Tibbi sığorta təşkilatının hüquq və vəzifələri**~~

~~Tibbi sığorta təşkilatının hüquqları aşağıdakılardır:~~

~~tibbi sığorta müqavilələri üzrə tibbi yardım və xidmətlər göstərilməsi üçün tibb müəssisəsini seçmək;~~

~~tibb müəssisələrinin akkreditasiyasında iştirak etmək;~~

~~tibbi xidmətlər üçün tariflərin müəyyənləşdirilməsində iştirak etmək;~~

~~tibb müəssisələri tərəfindən müqavilənin şərtlərinin pozulduğu hallarda tibbi xidmətlərə çəkilən xərcləri qismən ödəmək;~~

~~tibb müəssisəsinin və (və ya) tibb işçisinin təqsiri üzündən sığorta olunana vurulmuş zərərin ödənilməsi üçün qanunvericilikdə müəyyən edilmiş qaydada məhkəməyə müraciət etmək;~~

~~zərərin sığorta olunan tərəfindən vurulduğu hallar istisna olmaqla, vətəndaşın sağlamlığına vurulmuş zərər üçün cavabdeh olan fiziki və ya hüquqi şəxslərdən qanunvericilikdə müəyyən olunmuş qaydada sığorta olunana tibbi yardım göstərilməsinə sərf olunmuş xərclərin ödənilməsini tələb etmək.~~

~~Tibbi sığorta təşkilatı sığorta əməliyyatları üzrə fəaliyyətinin sabitliyini təmin etmək üçün "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq sığorta haqları hesabına sığorta ehtiyatlarını formalaşdırmalıdır.~~

~~Tibbi sığorta təşkilatının vəzifələri aşağıdakılardır:~~

~~tibbi sığorta olunanlara tibbi sığorta proqramına uyğun tibbi yardım göstərilməsi üçün qanunvericilikdə müəyyənləşdirilmiş qaydada fəaliyyət göstərən tibb müəssisələri ilə müqavilələr bağlamaq;~~

~~*icbari tibbi sığorta üzrə müvafiq riskləri sığorta etdirmək üçün müraciət edən və sığorta marağı olan şəxslə icbari tibbi sığorta müqaviləsi bağlamaq;*~~

~~tibbi sığorta müqaviləsinin qüvvəyə mindiyi andan sığorta olunana tibbi sığorta şəhadətnaməsini vermək;~~

~~tibb müəssisələrinə tibbi xidmətin haqqını müqavilədə nəzərdə tutulmuş qaydada və müddətdə ödəmək;~~

~~könüllü tibbi sığorta müqaviləsində nəzərdə tutulmuşsa, sığorta haqlarının bir hissəsini sığorta olunana qaytarmaq;~~

~~müqavilənin şərtlərinə uyğun olaraq tibbi yardımın həcminə, müddətinə və keyfiyyətinə nəzarət etmək;~~

~~sığorta olunanın mənafelərini müdafiə etmək.~~

[xliv] 3 dekabr 2019-cu il tarixli **1718-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 26**

**dekabr 2019-cu il, № 288)** ilə 13.1.3-cü maddədə “**tibb təchizatçısının, tibbi ərazi bölməsinin**” sözləri “**tibb müəssisəsinin**” sözləri ilə əvəz edilmişdir.

xlv 28 dekabr 2018-ci il tarixli **1441-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 3 fevral 2019-cu il, № 27, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 01, maddə 47)** ilə IV fəslin adı yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:
~~I V f ə s i l **TİBBİ SIĞORTA SİSTEMİNDƏ TİBB MÜƏSSİSƏLƏRİNİN FƏALİYYƏTİ**~~

xlvi 20 fevral 2001-ci il tarixli 86-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 3, maddə 141**) ilə 14-cü maddənin adında, birinci və üçüncü hissələrində, beşinci hissənin birinci abzasında “**fərdi tibbi fəaliyyətlə**” sözləri “**özəl tibbi praktika ilə**” sözləri ilə əvəz edilmişdir.

xlvii 20 fevral 2001-ci il tarixli 86-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 3, maddə 141**) ilə 14-cü maddəyə ikinci hissə əlavə edilmiş, ikinci, üçüncü, dördüncü, beşinci və altıncı hissələr müvafiq olaraq üçüncü, dördüncü, beşinci, altıncı və yeddinci hissələr hesab edilmişdir.

xlviii 7 dekabr 2007-ci il tarixli 503-IIIQD nömrəli Azərbaycan Respublikası Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, №12, maddə 1212**) ilə 14-cü maddənin dördüncü hissəsində **“məşğul olan şəxslərin”** sözlərindən sonra **“könüllü”** sözü əlavə edilmişdir.

xlix 20 fevral 2001-ci il tarixli 86-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 3, maddə 141**) ilə 14-cü maddənin altıncı hissəsində “**fərdi tibbi fəaliyyət göstərən**” sözləri “**özəl tibbi praktika ilə məşğul olan**” sözləri ilə əvəz edilmişdir.

l 20 fevral 2001-ci il tarixli 86-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 3, maddə 141**) ilə 14-cü maddəyə səkkizinci hissə əlavə edilmişdir.

li 28 dekabr 2018-ci il tarixli **1441-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 3 fevral 2019-cu il, № 27, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 01, maddə 47)** ilə 15-ci maddənin adında “**Tibbi**” sözü “**Könüllü tibbi**” sözləri ilə əvəz edilmişdir.

lii 28 dekabr 2018-ci il tarixli **1441-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 3 fevral 2019-cu il, № 27, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 01, maddə 47)** ilə 15-ci maddənin birinci və ikinci hissələri ləğv edilmişdir.

liii 20 fevral 2001-ci il tarixli 86-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 3, maddə 141**) ilə 15-ci maddənin üçüncü hissəsində “**fərdi tibbi fəaliyyətlə**” sözləri “**özəl tibbi praktika ilə**” sözləri ilə əvəz edilmişdir.

28 dekabr 2018-ci il tarixli **1441-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 3 fevral 2019-cu il, № 27, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 01, maddə 47)** ilə 15-ci maddənin üçüncü hissədə “**sığorta təşkilatı**” sözləri “**sığortaçı**” sözü ilə, “**tibb müəssisəsi**” sözləri “**tibb təchizatçısı və ya tibbi ərazi bölməsi**” sözləri ilə əvəz edilmişdir.

liv 28 dekabr 2018-ci il tarixli **1441-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 3 fevral 2019-cu il, № 27, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 01, maddə 47)** ilə yeni məzmunda IV-I – IV-V fəsillər əlavə edilmişdir.

lv 3 dekabr 2019-cu il tarixli **1718-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 26**

